Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Erməni vandalizminin ifşasında Azərbaycançılıq ideologiyasının metodik rolu...

## Azərbaycançılıq ideyasının təbliği

**Milli şüurun formalaşması üçün müstəqil dövlətçilik amili mühüm və vacib şərtlərdən ən başlıcasıdır. Milli şüur kimi formalaşan azərbaycançılıq anlayışı barədəki başlıca fikir və mülahizələr də məhz ölkəmizdə müstəqil dövlətçiliyin bərqərar olunduğu dövrdən sonra meydana gəlib.**



Ancaq azərbaycançılıq anlayışı barədə əvvəllər də müəyyən fikir və mülahizələr irəli sürülüb. Azərbaycançılıq ideyaları isə bilavasitə Azərbaycan cəmiyyətinin yarandığı dövrlərlə səsləşir. Bu o deməkdir ki, milli düşüncə formasındakı azərbaycançılıq ideyaları zaman-zaman yaranıb. Müstəqil dövlətçilik mərhələsində isə bu ideyalar yetkin səviyyəyə çataraq milli şüura çevrilir. Azərbaycançılıq həm də birləşdirici bir ideologiyadır. Etnik mənsubiyyətindən asılı olmayaraq bütün insanlar bunun ətrafında birləşir. 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının göstərdiyi həmrəylik bir daha bunu sübut etdi.

**"Ermənilərin barbarlığı 30 ilə yaxın işğal dövründə bütün çılpaqlıqları ilə özünü göstərdi"**

O da məlum həqiqətdir ki, Ermənistan onilliklər ərzində dünya ictimaiyyətini çaşdırmağa, öz vəhşiliklərini, vandalizm aktlarını gizlətməyə və bunu Azərbaycana aid etməyə çalışıb. Bu da onların xislətindən irəli gəlir. Çünki Ermənistan yalnız xain qonşu deyil, həm də barbardır. Onların barbarlığı 30 ilə yaxın işğal dövründə bütün çılpaqlıqları ilə özünü göstərdi. Uzun illər Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan ordusu ərazilərimizdən qovulanda da cinayət əməllərindən əl çəkmədilər. Olan-qalan nə varsa onu ya dağıtdılar, ya da od vurub yandırdılar. Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan topraqlarında xalqımızın milli-mədəni irsi, mədəni abidələri, məscidlər və ibadət evləri dağıdılıb, talan edilib. Gör bunlar nə qədər vəhşi toplumdular ki, hətta qəbir daşlarını belə yerindən çıxarıblar. Məzarları qazıblar və kimin qızıl dişi varsa, onu oradan götürüblər. Bu vandalizm aktları azad olunan ərazilərin video və fotogörüntülərində aydın əksini tapıb. Nə qədər vəhşi olasan ki, belə cinayətlər törədəsən. Söhbət insanlığa sığmayan barbarlıqdan gedir. O barbarlıq ki, bunu ancaq erməni törədə bilər.

**"Azərbaycançılıq ölkədə tolerant mühitin möhkəmlənməsinə və inkişaf etməsinə xidmət edir"**

Azərbaycan tolerantlıq və multikulturalizm ünvanı kimi dünyada özünü çoxdan təsdiq edib. Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət humanizm ənənələrinə, milli-mədəni irsin qorunub saxlanmasına, ölkədə yaşayan bütün xalqların, etnik azlıqların hüquq və azadlıqlarının, dini etiqad azadlığının təmin olunması prinsipinə əsaslanır. Azərbaycan Konstitusiyasında bunlarla bağlı uyğun maddələr də var. Baxmayaraq ki, 30 ilə yaxın işğal dövründə ermənilər misli görünməmiş vandallıq aktları törədiblər, bizdə ermənisiz Azərbaycan siyasəti həyata keçirilmir. Azərbaycan Prezidenti dəfələrlə bəyan edib ki, Qarabağdakı etnik ermənilər bizim vətəndaşımızdır və digər ölkə sakinləri ilə eyni hüquqlara malikdirlər. Bütün bunlar Azərbaycanın tolerant ölkə olduğunu bir daha göstərir. Azərbaycançılıq ideologiyası həm də ölkədə tolerant mühitin möhkəmlənməsinə və inkişaf etməsinə xidmət edir. Azərbaycanda bütün dini, tarixi, mədəniyyət abidələri bərpa olunur, mühafizə edilir və xalqımızın zəngin mədəni irsinin mühüm tərkib hissəsi kimi gələcək nəsillər üçün qorunub saxlanılır. Çünki bütün bunlar bizim zəngin mədəni irsimizdir. Mədəni irsimizin rəngarəngliyi bizim zənginliyimizdir. Ona görə də sadalananlar çox böyük əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, Azərbaycanda hər kəsin vicdan azadlığına dərin hörmətlə yanaşılır. Ölkədə məscidlərlə yanaşı, kilsələr, sinaqoqlar, ayrı-ayrı dini icmaların ibadət yerləri sərbəst şəkildə fəaliyyət göstərir. Hansısa dini icmaların yanaşı fəaliyyət göstərməsində bir problem yoxdur. Belə tolerant yanaşma az sayda ölkədə mövcuddur. Azərbaycan bu baxımdan nümunəvi ölkədir.

**"Hər bir ölkə vətəndaşı erməni vandalizmini ifşa etmək üçün əlindən gələni etməlidir"**

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin fikrincə, Azərbaycançılıq ideologiyası təkcə Vətən müharibəsi dönəmində deyil, hər zaman birləşdirici rol oynayıb: "Bəli, Vətən müharibəsi dövründə bütün xalq Ali Baş Komandanın ətrafında yumruq kimi sıx birləşdi. Etnik mənsubiyyətindən asılı olamayaraq bütün əsgərlərimiz çiyin-çiyinə düşmənə qarşı vuruşurdular. Çünki onlar vahid amal uğrunda döyüşürdülər. Allaha şükürlər olsun ki, 30 illik həsrətə son qoyuldu və işğal altında olan ərazilərimiz azad edildi.

Ərazilərimiz azad edildəndən sonra mədəni abidələrimizin, məscidlərimizin, yaşayış məntəqələrinin necə vəhşicəsinə məhv edildiyimi gördük. O cümlədən, bunu bütün dünya gördü. Ötən müddət ərzində işğaldan azad olunan ərazilərdə bir sıra mötəbər tədbirlər keçirilib. Həmin tədbirlərdə iştirak edən xarici qonaqlar erməni vandalizmini öz gözləri ilə görürlər və onların necə vəhşi bir toplum olduqlarını anlayırlar. Bütün bunları dünya ictimayətinin görməsi ümumən müsbət haldır. Hər bir ölkə vətəndaşı erməni vandalizmini ifşa etmək üçün əlindən gələni etməlidir. Yalnız o zaman daha ciddi nəticələr əldə etmək mümkün olacaq".

***Vidadi ORDAHALLI***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**